Azərbaycan Respublikası vergilər nazirinin
“ 17 ” dekabr 2013-cü il tarixli
1317040101555900 nömrəli əmri ilə
təsdiq edilmişdir

# Vergilər Nazirliyinin e-kitabxanasının fəaliyyətinin tənzimlənməsi QAYDALARI

## I. Ümumi müddəalar

1. Bu Qaydalar Vergilər Nazirliyinin elektron kitabxana (bundan sonra - e-kitabxana) sisteminin ümumi əsaslarını, e-kitabxana məlumat bazasının formalaşdırılması və mühafizəsi tələblərini, kitabxanadan istifadə qaydalarını, bu sahədə vergi orqanı əməkdaşlarının (bundan sonra - əməkdaşlar) hüquq və vəzifələrini müəyyən edir.

2. E-kitabxananın fəaliyyətinin əsas istiqamətləri elektron informasiyaları vahid bazada toplamaq, sistemləşdirmək, əməkdaşların həmin informasiyalardan daha çevik istifadəsini təmin etməkdən, vergi qanunvericiliyi və inzibatçılığına dair təkliflərin, o cümlədən xarici ezamiyyələr zamanı əldə edilmiş materialların yerləşdirilməsi və bu barədə fikir mübadiləsi üçün şəraitin təmin edilməsindən ibarətdir.

3. E-kitabxananın tətbiqi və təkmilləşdirilməsi məsələləri üzrə əlaqələndirici qurum Vergilər Nazirliyinin (bundan sonra - nazirlik) Tədris Mərkəzidir.

E-kitabxananın proqram təminatı və “veb” səhifəsinin (istifadəçi interfeysinin) təkmilləşdirilməsi, e-kitabxananın məlumat bazasında yerləşdirilmiş hüquqi aktlar və materialların mühafizəsinin təmin olunması məsələləri üzrə məsul struktur vahid nazirliyin İnformasiya texnologiyaları və proqram təminatı şöbəsidir.

4. Bu qaydaların məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə olunur:

4.1. **e-kitabxana** – “e-kitabxana.taxes.gov.az” ünvanında yerləşdirilmiş, vergi qanunvericiliyi, vergi və vergitutma məsələləri ilə bağlı digər hüquqi aktları, habelə aktual yeniliklər barədə informasiyaları, nazirliyin nəşrlərini, eləcə də xarici ezamiyyələrə

dair materialları özündə cəmləşdirən, mühafizə edən, onların sistemli və korporativ istifadəsini təşkil edən, intellektual və peşəkarlıq potensialının inkişafına xidmət göstərən elektron məlumat bazasıdır;

4.2. **e-kitabxananın işinə məsul şəxs** (bundan sonra - məsul şəxs) – aidiyyəti hüquqi aktlar və materialların e-kitabxanaya daxil edilməsi və onların yenilənməsini təmin edən əməkdaşdır;

4.3. **e-kitabxananın məlumat bazası -** əməkdaşların istifadəsi məqsədilə bu Qaydaların tələblərinə uyğun şəkildə formalaşmış informasiyaların daşıyıcısıdır.

## II. E-kitabxananın məqsədi və prinsipləri

5. E-kitabxananın məqsədi nazirliyin normativ hüquqi aktlarının, "Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə"yə əsasən qəbul edilmiş qərar və əmrlərinin, xarici ölkələrin vergi sisteminə və ən qabaqcıl təcrübələrinə dair materialların vahid elektron məlumat bazasında toplanması və daim yenilənməsi, hüquqi aktlar və materialların istifadəsi üçün nazirliyin bütün struktur vahidləri və bölmələrinin əməkdaşlarına korporativ şəbəkə vasitəsilə imkanların yaradılmasıdır.

Bu Qaydalara uyğun olaraq e-kitabxanada yerləşdirilmiş hüquqi aktlar və materiallardan yalnız vergi orqanı əməkdaşları istifadə edə bilər.

6. E-kitabxananın əsas prinsiplərinə aşağıdakılar aiddir:

6.1. Əhəmiyyətlilik prinsipi:

6.1.1. bu Qaydaların 8-ci bəndinə müvafiq olaraq e-kitabxanaya daxil edilən hüquqi aktlar və materialların vahid məlumat bazasında toplanması, onların asan şəkildə axtarılması və əldə olunması;

6.1.2. aidiyyəti hüquqi aktlara dəyişikliklər edildikdə operativ olaraq yenilənmiş hüquqi aktların e-kitabxana vasitəsilə istifadəçilərə təqdim edilməsi;

6.1.3. beynəlxalq təcrübənin öyrənilməsi zamanı materialların uzun müddət ərzində internetdə axtarılmasına sərf olunan vaxta qənaət olunması;

6.1.4. əməkdaşların xarici ölkələrdə iştirak etdikləri konfrans, seminar və digər tədbirlərdə əldə etdikləri materialların e-kitabxanada yerləşdirilməsi;

6.1.5. beynəlxalq və regional təşkilatlar tərəfindən dərc edilən nəşrlərin e-kitabxanada yerləşdirilməsi.

6.2. Üstünlük prinsipi:

6.2.1. e-kitabxanada yerləşdirilmiş materialların yerləşmə yerindən asılı olmayaraq istifadəçi tərəfindən asanlıqla oxuna bilməsi;

6.2.2. hər hansı bir materialın eyni anda qeyri-məhdud sayda istifadəçi tərəfindən oxuna bilməsi;

6.2.3. xarici ölkələrin makroiqtisadi göstəriciləri və vergi sisteminə dair statistik məlumatlarının işlənib hazırlanması və yayılması.

## III. E-kitabxana sistemi

7.1. E-kitabxana sisteminə aşağıdakılar daxildir:

7.1.1. hüquqi aktlar və materialların daxil edilməsi üçün proqram təminatı;

7.1.2. e-kitabxananın məlumat bazası;

7.1.3. “veb” səhifə (istifadəçi interfeysi).

7.2. Hüquqi aktlar və materialların daxil edilməsi üçün proqram təminatı bölmələr və təsnifatlar, axtarış zamanı istifadə olunan meyarlar üzrə istənilən hüquqi akt və materialların elektron formatda daxil edilməsinə və oxunmasına imkan verən proqramdır.

7.2.1. nazirliyin struktur vahidinin məsul şəxsi tərəfindən bu Qaydaların 8.1-ci bəndində göstərilən normativ hüquqi aktlar rəsmi dərc edildikdə, nazirliyin müvafiq əmrləri Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində (AVİS) imzalandıqdan 5 gün müddətində xidməti məktubla e-kitabxanaya daxil edilmək üçün əlaqələndirici ~~struktur vahidə~~ qurum təqdim edilir. Nazirliyin mövcud qaydaları, metodiki göstərişləri, təlimatları və digər zəruri sənədlərinə müvafiq əmrlə dəyişiklik edildikdə qeyd olunan əmr AVİS-də imzalandıqdan 15 gün müddətində həmin sənədlər yenilənmiş formada

(əlavə və dəyişikliklər nəzərə alınmaqla) xidməti məktubla e-kitabxanaya daxil edilmək üçün əlaqələndirici struktur vahidə təqdim edilir.

7.2.2. nazirliyin struktur vahidinin məsul şəxsi tərəfindən bu Qaydaların 8.3-cü bəndində nəzərdə tutulan təqdimatlar xidməti məktubla aidiyyəti əməkdaşlar tərəfindən təqdimat aparıldığı tarixdən sonrakı 10 gün müddətində əlaqələndirici quruma təqdim edilir.

7.2.3. nazirliyin Analitik-informasiya şöbəsinin məsul şəxsləri tərəfindən bu Qaydaların 8.7.1-8.7.3-cü bəndlərində göstərilən video materiallar dərs, treninq və seminarların keçirildiyi ay başa çatdıqdan sonra 10 gün müddətində əlaqələndirici quruma təqdim olunur.

7.2.4. əlaqələndirici qurumun məsul şəxsləri tərəfindən bu Qaydaların 8-ci bəndində göstərilən və nazirliyin struktur vahidlərinin məsul şəxslərindən daxil olan hüquqi aktlar və materiallar e-kitabxanaya daxil edilir.

7.3. E-kitabxanadan hüquqi aktlar və materiallar aşağıdakı qaydada əldə oluna bilər:

7.3.1. bölmələr və təsnifatlar üzrə;

7.3.2. axtarış pəncərəsi vasitəsilə.

7.4. Bölmələr və təsnifatlar üzrə axtarış zamanı hüquqi aktlar və materiallar bu Qaydaların 8-ci bəndində göstərilən bölmələrin müvafiq təsnifatının pəncərəsinə daxil olmaqla əldə oluna bilər.

7.5. İstifadəçilər üçün "axtarış pəncərəsi" vasitəsilə axtarış müxtəlif parametrlər üzrə "sadə" və ya "ətraflı" şəkildə aparıla bilər:

7.5.1. "sadə axtarış" materialın başlığında və ya mətnində mövcud olan açar söz və ya ifadə üzrə aparılır;

7.5.2. "ətraflı axtarış" materialın adı, müəllifi, nəşr ili, təsnifatı, dili və digər parametrlər üzrə aparıla bilər.

## IV. E-kitabxananın strukturu

8. Hüquqi aktlar və materiallar müvafiq dillərdə (Azərbaycan, ingilis və .rus) aşağıdakı bölmələr üzrə müvafiq təsnifatlara uyğun olaraq yerləşdirilir:

8.1. Qanunvericilik bölməsi:

8.1.1. Azərbaycan Respublikasının məcəllələri alt-bölməsi;

8.1.2. nazirliyin fəaliyyətinə aid normativ hüquqi aktlar alt-bölməsi;

8.1.3. nazirliyin təsdiq etdiyi normativ hüquqi aktlar, qəbul edilmiş qərar və əmrlər alt-bölməsi.

8.2. Xarici ölkələrin vergi sistemi bölməsi:

8.2.1. xarici ölkələrin vergi qanunvericiliyi alt-bölməsi:

- məcəllələr;
- vergilərə dair qanunlar;
- digər qanunvericilik aktları.

8.2.2. xarici ölkələrin vergi inzibatçılığı alt-bölməsi;

8.2.3. xarici ölkələrin statistik məlumatları alt-bölməsi:

- makroiqtisadi göstəricilər;
- vergi sistemi üzrə göstəricilər.

8.2.4. xarici ezamiyyələrə dair hesabatlar alt bölməsi.

8.3. Nazirliyin əməkdaşlarının hazırladıqları təqdimatlar bölməsi.

Bu bölmədə əməkdaşların beynəlxalq və yerli konfrans və seminarlar, nümayəndə heyətlərinin Azərbaycana səfəri ilə bağlı keçirilən görüşlər üçün hazırladıqları təqdimatlar (Azərbaycan, ingilis və ya rus dillərində) yerləşdirilir.

8.4. Vergi forumu bölməsi.

Bu bölmədə nazirlikdə tətbiq edilməsi gözlənilən layihələr, əməkdaşlar üçün aktual olan mövzular və məsələlər barədə müzakirələr və fikir mübadiləsi aparılır. Əməkdaşlar bu bölmə vasitəsilə müvafiq mövzuları müzakirəyə çıxara və vergi sisteminin təkmilləşdirilməsi ilə bağlı təkliflərini təqdim edə bilərlər.

8.4.1. əlaqələndirici qurumun məsul şəxsi vergi forumunda müzakirəyə təqdim olunmaq üçün tətbiq edilməsi gözlənilən layihələr, əməkdaşlar üçün aktual olan məsələlər

barədə ümumi və konkret sahələr üzrə mövzu kateqoriyaları yarada bilər. Həmin kateqoriyalarda əməkdaşlar müzakirə olunan mövzu və məsələ ilə bağlı münasibət bildirə və təkliflərini təqdim edə bilərlər.

8.4.2. vergi forumunda əməkdaşlar müvafiq məlumatlar (ad, soyad, vəzifə, elektron poçt ünvanları) daxil edilməklə qeydiyyatdan keçdikdən sonra iştirak edə bilərlər.

8.5. Yeniliklər bölməsi.

Bu bölmədə xarici ölkələrin vergi sistemi, vergi qanunvericiliyi və inzibatçılığında baş verən yeniliklər və əməkdaşların ezamiyyələri barədə məlumatlar yerləşdirilir.

8.6. İqtisadi terminlər bölməsi.

Bu bölmədə iqtisadi sahədə, o cümlədən vergi sistemində istifadə olunan əsas anlayışlar və terminlər yerləşdirilir.

8.7. Vergi tədrisi üzrə rəqəmsal materiallar bölməsi.

Bu bölmədə aşağıdakı materiallar yerləşdirilir:

8.7.1. nazirliyin Tədris Mərkəzində keçirilən nümunəvi dərslərin, treninq və seminarların video çəkilişləri;

8.7.2. beynəlxalq ekspertlər tərəfindən nazirlikdə keçirilən treninq və seminarların video çəkilişləri;

8.7.3. tətbiq edilən yeniliklər barədə izahedici video çarxlar;

8.7.4. ingilis dilinin tədris materialları.

8.7.5. digər zəruri video materiallar.

8.8. İqtisadi sahədə beynəlxalq indekslər və hesabatlar bölməsi.

Bu bölməyə Dünya Bankının “Doing Business” hesabatı, Ümumdünya İqtisadi Forumunun hesabat və indeksləri, “Heritage” Fondunun İqtisadi Azadlıq İndeksi və digər beynəlxalq indekslər barədə icmallar və təhlil materialları daxil edilir.

8.9. Faydalı elektron ünvanlar bölməsi.

Bu bölməyə dövlət və qeyri-dövlət qurumlarının, ictimai təşkilatların və informasiya agentliklərinin elektron ünvanları yerləşdirilir:

8.9.1. Azərbaycan Respublikasının dövlət qurumları;

8.9.2. nazirliyin təsis etdiyi dövri nəşrlər;

8.9.3. dünya ölkələrinin vergi administrasiyaları;

8.9.4. vergi yenilikləri üzrə informasiya agentlikləri;

8.9.5. yerli və xarici e-kitabxanalar;

8.9.6. digər aidiyyəti ünvanlar.

## V. Əməkdaşların e-kitabxanadan istifadə ilə bağlı vəzifə və hüquqları

9. E-kitabxanadan istifadə ilə bağlı əməkdaşların vəzifələri aşağıdakılardır:

9.1. e-kitabxanada yerləşdirilmiş hüquqi aktlar və materiallardan yalnız xidməti məqsədlər üçün istifadə etmək;

9.2. fəaliyyət sahəsinə uyğun hüquqi aktların və beynəlxalq təcrübəyə dair əldə olunmuş materialların e-kitabxanaya daxil edilməsi üçün tədbirlər görmək;

9.3. nazirliyin struktur vahidləri və ya bölmələrinin digər əməkdaşları tərəfindən e-kitabxanadan istifadə edilməsinə köməklik göstərmək.

10. E-kitabxanadan istifadə üzrə əməkdaşların hüquqları aşağıdakılardır:

10.1. e-kitabxanada yerləşdirilmiş hüquqi aktlar və materiallardan istifadə etmək;

10.2. e-kitabxananın vergi forumunda müzakirəyə çıxarılan layihələrə münasibət bildirmək, aktual olan mövzular və məsələlər barədə müzakirələr və fikir mübadiləsi aparmaq, vergi sisteminin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

10.3. e-kitabxananın təkmilləşdirilməsinə dair təkliflər vermək.

***